

*Dahi bəstəkar Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" qəhrəmani operaları, "Arşın mal alan" musiqili komediyası, "Sənsiz", "Sevgili canan" romans qəzəlləri milli musiqi xəzinəmizin inciləri sayılır.*

*Onun yaradıcılığının kökləri Azərbaycanın şifahi ənənəli musiqi irsindən qidalanır. Elə ilk əsəri - "Leyli və Məcnun" operasında muğamlara, təsnif və rənglərə, xalq mahnılarına əsaslanması bunu bir daha sübut edir. Bu da təbiidir. Çünki Qarabağın muğam mühitində, sənət məbədində dünyaya gəlmiş, boya-başa çatmış Üzeyir Hacıbəyov muğamları dərindən bilir, necə deyərlər, xalq musiqisi ilə nəfəs alırdı. Buna görə də onun yaradıcılığında xalq musiqisi ilə dərin qarşılıqlı əlaqələr özünü qabarıq şəkildə büruzə verirdi.*

# Ü. Hacıbəyovun yaradıcılığında xalq mahnılarının rolu

Üzeyir Hacıbəyov xalq musiqisi mənbələrinə yaradıcılıqla yanaşırdı, əsərdən-əsərə onun bu musiqiyə baxışları dəyişir və inkişaf edirdi.

Belə ki, "Leyli və Məcnun" operasında muğamlardan istifadə etdiyi halda Üzeyir Hacıbəyov "Koroğlu" operasında xalq musiqisinə əsaslanaraq, mahiyyət etibarilə dərin milli musiqi yaradır.

Bu xüsusiyyəti Üzeyir Hacıbəyov öz məqalələrində dəfələrlə vurğulayaraq gənc bəstəkarlara milli irsi yaradıcılıqla mənimsəməyi tövsiyə edirdi. Ardıcıl olaraq öz tələbələrinə aşılayırdı ki, xalqın mədəni irsini dərindən bilmədən incəsənəti irəli aparmaq olmaz. Onun fikrincə xalq musiqisi bütün professional musiqi yaradıcılığının inkişafının əsasını təşkil edir; bütün ölkələrdə, bütün dövrlərdə yüksək bədii dəyərə malik əsərlər yaradan sənətkarlar xalq yaradıcılığına əsaslanmışlar.

Bu baxımdan, Üzeyir Hacıbəyovun yaradıcılıq üslubunun formalaşmasında xalq mahnılarının əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Üzeyir Hacıbəyov xalq mahnısına xüsusi diqqət və qayğı ilə yanaşmışdır. O, xalq mahnılarını Azərbaycan xalqının əhval-ruhiyyəsini, zövqünü və yaradıcılıq qabiliyyətini əks etdirən zəngin bir material hesab edir, xalq mahnılarının istər musiqi, istər ədəbi, istər psixoloji, istərsə də etnoqrafik baxımdan əhəmiyyətini yüksək qiymətləndirirdi.

Üzeyir Hacıbəyovun "Azərbaycan musiqi həyatına bir nəzər", "Azərbaycanda musiqi tərəqqisi" kimi məqalələrində onun xalq mahnıları haqqında fikirləri bizim üçün çox qiymətlidir. O dönə-dönə tövsiyə edirdi ki, xalq mahnılarının mümkün olduqca ən qədim zamanlardan bəri yadda qalanlarını və indi mövcud olanlarını, hər il yenidən çıxanlarını harada da olsa yığıb nota salmaq və nə münasibətlə meydana çıxdığını öyrənib təfsilatı ilə yazmaq ən vacib işlərdən biridir.

Üzeyir Hacıbəyov milli musiqimizin inkişafında xalq mahnılarının əhəmiyyətini və onlardan istifadə yollarını da göstərmişdir. O, yazırdı ki, xalq mahnılarının təhlili yolu ilə Azərbaycan musiqisinin əsaslarını təyin edib, elmi nəzəriyyələr və qanunlar qurmaq və bununla da bəstəkarlarımıza musiqi elmini öyrətmək vacibdir. Bundan başqa, o, xalq mahnılarından münasiblərini seçib musiqi məktəbləri üçün tədris repertuarı hazırlamaq, xor üçün, müxtəlif ansambllar üçün işləmək lazımdır. Eyni zamanda, xalq mahnıları bəstəkar əsərləri üçün də gözəl mövzu ola bilər və bəstəkarlar bu zəngin xəzinədən yaradıcılıqla istifadə etməlidir. Onu da qeyd edək ki, həm xalq mahnılarının toplanıb nota salınmasında və işlənilməsində, həm də onların bəstəkar yaradıcılığında tətbiqi sahəsində ilk addımı məhz Üzeyir Hacıbəyovun özü atmışdır. Belə ki, 1927-ci ildə işıq üzü görən "Azərbaycan türk el nəğmələri" məcmuəsində Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin, Cabbar Qaryağdıoğlunun ifasından və Z.Hacıbəyovdan nota yazdıqları mahnılar toplanmışdır. Məcmuəyə daxil olan mahnıların çox hissəsi Ü.Hacıbəyov və M.Maqomayev tərəfindən işlənib harmonizə edilmiş, qalan hissəsi isə birsəsli verilmişdir. Məcmuəyə əmək, məişət, lirik mahnılar daxil edilmişdir.



Xalq mahnıları bəstəkarın yaradıcılığında mahnı janrının təşəkkül tapmasında böyük rol oynamışdır. Təsadüfi deyildir ki, Üzeyir Hacıbəyovun müxtəlif məzmunlu mahnıları xalq həyatının müxtəlif cəhətlərini işıqlandıran bədii sənət nümunələri kimi diqqəti cəlb edir.

Üzeyir Hacıbəyovun yaradıcılığında hərbi-vətənpərvərlik mahnıları, mahnı-marşlar, vətəni tərənnüm edən mahnılar, himnlər, uşaq mahnıları, lirik mahnı janrı da öz əksini tapmışdır. Bunlara misal kimi, "Qaragöz" lirik mahnısını, "Bir quş düşdü havadan", "Yetim quzu", "Pilotlar" uşaq mahnılarını, "Milli marş", "Azərbaycan", "Çırpınırdı Qara dəniz", "Süvari mahnısı", "Əsgər marşı", "Vətən ordusu", "Yaxşı yol", "Şəfqət bacısı", "Döyüşçülər marşı", "Ananın oğluna nəsihəti" kimi vətənpərvərlik mövzusunda yazılmış mahnıları göstərmək olar.

***Musiqi dilinin xüsusiyyətlərinə görə bu mahnıların xalq musiqisi ilə bağlılığı şəksizdir, burada bəstəkar yaradıcılığı ilə xalq mahnısı arasında dərin əlaqələr göz önündədir. Məhz bu cəhətlər Üzeyir Hacıbəyov musiqisinin ölməzliyini təmin edir.***

**Sevda MƏMMƏDLİ,**
*Bakı Musiqi Akademiyası fortepiano kafedrasının müəllimi*